*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (1) 2023*
*https://doi.org/ 10.46868/atdd.2023.*




*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received :20.07.2023*
*Kabul tarihi |Accepted: 25.07.2023*
*Yayın tarihi |Published : 25.08.2023*



**Səbirə Nemətzadə**

*https://orcid.org/0009-0008-7083-5085*
*Baku State University, Faculty of Social Sciences and Psychology, Department of History of Philosophy and Cultural Studies, Doctor of Philosophy, Associate Professor, Azerbaijan, sabiranematzade@yahoo.com*

*Atıf Künyesi | Citation Info*

Nemətzadə, S. (2023). İmadəddin Nəsiminin Azərbaycanın Mütəfəkkir Şairi Kimi Tanınmasında Heydər Əliyevin Xidmətləri. *Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 312- 316.

# İmadəddin Nəsiminin Azərbaycanın Mütəfəkkir Şairi Kimi Tanınmasında Heydər Əliyevin Xidmətləri

***Xülasə***

*Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqına 29 dekabr 2000-ci il tarixli müraciətində demişdir: "Xalqımızın əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiy-yat nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır. Dastanlarımız kimi möhtəşəm sənət abidələri, dünya sivilizasiya tarixində silinməz izlər qoymuş Qətran Təbrizi, Nizami Gəncəvi, Əfzələddin Xaqani, Xətib Təbrizi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi korifeylerin yaradıcılığı umumbəşəri ideyaların tərənnümünə, haqqın, ədalətin, humanist ideallarin bərqərar olmasına xidmət etmişdir".Bu korifeylər sırasında adı çəkilən Seyid İmadəddin Nəsimi (1369-1417) ədəbiyyat və fəlsəfi fikrin inkişafında*

*xidmətləri olan görkəmli, parlaq simalardan biridir. Məqalədə Azərbaycan poeziyasının inkişafında xüsusi yeri və rolu olan Seyid İmadəddin Nəsiminin mütəfəkkir şairi kimi tanınmasında Heydər Əliyevin xidmətləri təhlil edilir.*

***Açar sözlər:*** *Azərbaycan, Heydər Əliyev, İmadəddin Nəsimi, ədəbiyyat*

## Heydar Aliyev's Services in Recognizing Imadedin Nasimi as a Thinker Poet of Azerbaijan

***Abstrac***

*National leader Heydar Aliyev said in his address to the people of Azerbaijan dated December 29, 2000: "Cultural and literary examples created by our people over the centuries are imbued with love of life, freedom and independence. Magnificent art monuments like our epics, creativity of luminaries such as Qatran Tabrizi, Nizami Ganjavi, Afzaleddin Khagani, Khatib Tabrizi, Imadaddin Nasimi, Muhammad Fuzuli, who have left indelible traces in the history of world civilization, have served to glorify universal ideas, establish rights, justice, and humanistic ideals. Seyyid Imadedin Nasimi (1369-1417), who was mentioned among these luminaries, is one of the prominent and brilliant figures who contributed to the development of literature and philosophical thought. The article analyzes the merits of Heydar Aliyev in recognizing Seyid Imadedin Nasimi as a thinker poet, who has a special place and role in the development of Azerbaijani poetry.*

***Keywords:*** *Azerbaijan, Heydar Aliyev, Imadedin Nasimi, literature*

### Giriş

Seyid İmadəddin Nəsiminin anadilli Azərbaycan poeziyasının inkişafında, humanist ideyaların geniş yayılmasında və təbliğində özünəməxsus yeri vardır. Onun poeziyası öz bədii qüdrətinə və başdan-başa fəlsəfi fikirlərlə zənginliyinə görə hələ öz dövründən başlayaraq alim və tədqiqatçıların diqqətini cəlb etmişdir. Şairin dinsiz, kafir elan edilərək öl¬dürülməsi onun həyatı və əsərləri haqqında ilk məxəzlərin geniş yayılmasına xeyli mane olmuşdur, lakin tərəqqipərvər şəxslər onun böyük istedada, dərin fəlsəfi fikrə malik bir sənətkar olduğunu görərək əsərlərini qiymətləndirmiş və mühafizə etmişlər. İdeoloji baxımdan arzuedilməz sayılsa da, Nəsimi poeziyası ayrı-ayrı xəttatlar tərəfindən köçürülmüş və sonrakı nəsillərə ötürülmüşdür.

Dəqiqləşdirilmiş məlumata görə, Seyid Əli Əbülfəzl İmadəddin Nəsimi 1369-cu ildə Şamaxı şəhərində doğulmuşdur. Şairin atası Seyid Məhəmməd dövrünün tanınmış adamlarından olmuşdur. Nəsimi şəxsiyyəti, onun həyat və fəaliyyəti ilə əlaqədar ilkin

məlumatlara orta əsr mənbələrində rast gəlirik. Şair haqqında ilk müfəssəl məlumat verən onun müasiri İbn Həcər əl-Asqalanidir. İbn Həcər əl-Asqalani (vəf. 1421/22) Ənbaül-ğümr fi əbnail-ömr tarixi əsərində Nəimi haqqında bəzi məlumatlar verməklə yanaşı, həm də hürufilik təliminin əsas müddəalarını səciyyələndirməyə çalışır və onu küfr, bidət kimi qiymətləndirir. Təzkirədə Nəsimi Təbrizli kimi təqdim olunur. Əsl adı şeyx Nəsiməddindir, hürufilik deyilən yolun müəssisi Fəzlullah Astarabadinin tələbəsidir. Əvvəllər hürufi olduğu, lakin sonralar tövbə etdiyi bildirilir. Nəsiminin həyatı və fəaliyyəti ilə bağlı Kastamonlu Lətifinin “Məşahirüş-şüəra” adlı təzkirəsində şairin Bağdad diyarında Nəsim adlı nahiyədən olduğu qeyd edilir. Lətifidən sonra Nə-simidən bəhs edən Türkiyə təzkirəçiləri əsa¬sən onun məlumatını təkrar etmişlər. Müasir dövrdə Nəsimi haqqında bir-birini inkar edən və qarışıq salınan məsələlərin mey-dana gəlməsində bir tərəfdən katiblər, digər tərəfdən isə təzkirəçilər əsas rol oynamışlar. Katiblər, xüsusən Osmanlı katibləri şairin əsərlərinin dilinə əl gəzdirmiş, onu daha çox “diyarbəkirli” kimi təqdim etməyə çalışmışlar. Rzaqulu xan Hidayətin ardınca isə bütün İran qaynaqları Nəsimini Şirazlı kimi təqdim edirlər. Maraqlıdır ki, İran mənbələri Nəsiminin türkcə divanı olduğundan da bəhs etmirlər. Avropa tədqiqatçıları Nəsimi haqqında məlumat verən təzkirələrə, xüsusilə Osmanlı mənbələrinə əsaslanaraq Nəsimi haqqında məqalələr yazmışlar. Məşhur alman şərqşünası Hammer Purqştallın verdiyi məlumat Lətifı təzkirəsinə əsaslanır. Hammer - Purqştall 1836-cı ildə Avropada ilk dəfə Nəsiminin bioqrafıyasını (Hammer-Purgstall, 1836). nəşr etdirmiş və onun həyat yolu, eləcə də yaradıcılığından bəzi nümunələr ilə Avropa oxucusunu tanış etmişdir. Qərb elmində Nəsimi haqqında ilk dəfə geniş məlumat verən ingilis şərqşünası (Gibb, 1900). Seyid Nəsiminin həyat və yaradıcılığından bəhs edərək onu Osmanlı poeziyasının nümayəndəsi kimi təqdim edir. İmadəddin Nəsiminin şəxsiyyəti, mənsubiyyəti və harada doğulması ilə əlaqədar yanlış, nöqsanlı məlumatlar mütəfəkkir şairin müxtəlif sufi təriqətlərinə daxil olması və səyahətlərdə ( səyahət - təsəvvüfün əsas şərtlərindən biridir) keçən ömrü ilə bağlıdır. Azərbaycanda demək olar ki, ilk dəfə İsmail Hikmət “Azərbaycan ədəbiyyatı tarixi” kitabında İmadəddin Nəsimi haqqında məlumat verir, Nəsiminin Divan’ı 1926-cı ildə Salman Mümtaz tərəfindən nəşr edilir. Nəsimi irsini tədqiq edən türk professoru Fuad Köprülüzadə, Türk ədəbiyyatında ilk mütəsəvviflər (1918), Azəri ədəbiyyatına aid tədqiqlər (1926) və başqa əsərlərində şair haqqında bəzi diqqətəlayiq fıkirlər irəli sürərək, Nəsimini, Azəri ədəbiyyatının ən böyük şəx-siyyəti, təsiratının vüsət və davamı etibarilə bütün türk ədəbiyyatının ən yüksək mümənssillərindən hesab etmiş, onun osmanlı ədəbiyyatı üzərində də pək dərin izlər

buraxdığını qeyd etmişdir. 1940-50-ci illərdə Əli Əjdər Səidzadə, Mirzağa Quluzadə, Feyzulla Qasımzadə və d. şairin irsini tədqiq etmişlər.

1973-cü ildə YUNESKO tərəfindən İmadəddin Nəsiminin anadan olmasının 600 illik yubileyi ilə bağlı tədbirlərin keçirilməsi şairin dünya miqyasında Azərbaycan şairi kimi tanıdılmasında mühüm rol oynamışdır. Heydər Əliyev, 1970-ci ildə Suriyaya rəsmi səfər edərkən Hafiz Əsədə Hələb şəhərinə getmək və İmadəddin Nəsiminin məzarını ziyarət etmək istədiyini bildirir. Həmin zaman Suriya hökuməti Azərbaycan təsəvvüf poeziyasının nümayəndəsi Şeyx İmadəddin Nəsiminin məzarının tapılması və səliqəyə salınması, onun nəzarətə götürülməsi barədə sərəncam verir. Təbii ki, Bakıya dönən Azərbaycan Respublikasının Birinci katibi Heydər Əliyev, Nəsiminin dünya miqyasında tanıdılması, 600 illik yubileyinin keçirilməsi üçün Moskvaya Mərkəzi Komitəyə yazılı müraciət edir. Nəsiminin yubileyinin ümumittifaq və ümumdünya miqyasında qeyd edilməsi üçün SSRİ Nazirlər Sovetinə müvafiq göstərişlər verilir və yubiley komissiyası yaradılır. Heydər Əliyevin tapşırığı ilə akademik Həmid Araslı və professor Araz Dadaşzadə Suriyaya ezam edilirlər. Onlar Nəsiminin məzarını ziyarət edir və Nəsiminin məqbərəsi yerləşən türbənin vəziyyəti ilə tanış olurlar. Həmin dövrdə Azərbaycanın Birinci Katibi Heydər Əliyevin əməyi nəticəsində məzar bərpa edilir. Nəsiminin portretini yaratmaq üçün beynəlxalq müsabiqə elan olunur. Azərbaycan KP MK Bürosunun 1972-ci il 2 fevral, 1973-cü il 13 mart və 28 avqust tarixli iclaslarında həmin məsələ müzakirə edilir.1973-cü ilin sentyabrında Azərbaycanda yubiley toplantısı keçirilir. Yubileyə dünyanın bir çox ölkəsindən nümayəndələr gəlir. YUNESKO-nun "Kuryer" jurnalında Azərbaycan mütəfəkkiri İmadəddin Nəsimi haqqında məqalə dərc edilir. Azərbaycanda şairin üç cildlik əsərləri nəşr olunur, Zümrüd Quluzadə, Həmid Araslı, Mirzə İbrahimov əsaslı şəkildə Nəsiminin ədəbi fəlsəfi irsini tədqiq edirlər.

Dünya miqyasında Seyid İmadəddin Nəsiminin Azərbaycan şairi və mütəfəkkiri kimi qəbul edilməsinə baxmayaraq, ayrı-ayrı yerli əhəmiyyətli tədqiqatçıların əsərlərində onun milliyyəti hələ də şübhə altına alınmaqda davam edir. Türkiyə tədqiqatçısı Hüseyin Ayan bir sıra mənbələri araşdıraraq Nəsimi haqqında ilkin məlumatları cəmləmiş və belə qənaətə gəlmişdir ki, izlədiyi mənbələr Nəsiminin nərədə doğulduğunu, nərələri dolaşdığını və hansı tarixdə öldürüldüyünü tam olaraq öyrənməyə imkan vermir. Türkmən alimi Nazar Qullayev Nəsimi haqqında Türkiyə və Azərbaycan alimlərinin araşdırmalarını nəzərdən keçirərək, böyük şairin milli mənsubiyyəti haqqında mübahisələrə qo-şularaq onu türkmən şairi kimi təqdim etmişdir. Halbuki 1973-cü ildə Bakıda buraxılmış məqalələr məcmuəsində

Türkmənistan Yazıçılar İttifaqı İdarə Heyətinin sədri Rahim Asənov Nəsimi haqqında öz ürək sözlərini yazaraq onu Böyük Azərbaycan şairi adlandırmışdır. Dünya şöhrətli türkoloq Məhəmməd Fuad Köprülüzadə isə yazırdı: Bütün türk ədəbiyyatının ən yüksək müməssillətindən. Bu ilahi sənətkar ləhceyi-nəzmi etibarilə tamamən Azəri dairəsinə mənsub olduğu halda, Osmanlı ədəbiyyatı üzərində də pək dərin izlər buraxdı.

## Nəticə

2017-ci il may ayının 18-də Parisdə UNESCO-nun baş qərargahında Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycanın UNESCO yanında daimi nümayəndəliyinin birgə təşkilatçılığı ilə ölkəmizin UNESCO-ya üzv olmasının 25 illik yubileyinin qeyd edilməsi çərçivəsində böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin vəfatının 600-cü ildönümü ilə əlaqədar tədbir keçirilibdir. Tədbirin açılışında çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin Əfəndiyev Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin dünya ədəbiyyatı və fəlsəfi fikrindəki mövqeyini dəyərləndirərək qeyd edib ki, İ. Nəsiminin adı vətəni Azərbaycanda əbədiləşdirilib, elm və təhsil ocaqlarına, rayon, küçə, meydanlara onun adı verilib, abidəsi ucaldılıb. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin təşəbbüs və səyləri ilə hələ SSRİ dövründə Bakının mərkəzində şairin abidəsi ucaldılıb, onun adının əbədiləşdirilməsi üçün çox işlər görülübdür. İmadəddin Nəsiminin vəfatının 600-cü ildönümünün qeyd edilməsi üçün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən müvafiq sərəncamın verilməsi ölkəmizdə şairə verilən yüksək dəyərin göstəricisidir. UNESCO səviyyəsində görkəmli şairə həsr olunmuş tədbirin keçirilməsi də onun bəşəriyyət üçün görkəmli şəxsiyyət olmasından xəbər verir.

## Ədəbiyyat

Gibb, E. J. W. (1900). *A history of Ottoman poetry*, v. 1, L.

Hammer-Purgstall, J. (1836). *Geschichte der Osmanischen Dichtkunst bis auf unsere Zeit.* (Cild 1). (1300-1521), Peşte: Conrad Adolph Hartleben's Verlag.

Körpülüzadə, M. F. (1996). *Azəri ədəbiyyatına aid tədqiqlər*. Sabah.

Quluzadə, M. (1973). *Böyük ideallar şairi*. Gənclik.